# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışını etdiyiniz haqqında xəbəri böyük sevinc və fərəh hissi ilə qarşıladıq. Sizin təşəbbüsünüzlə inşa edilən bu bina Sizin yaradıcı insanlara, o cümlədən yazıçılara daimi diqqətinizin və qayğınızın yeni parlaq təzahürüdür. Buna görə Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Sizin rəhbərliyinizlə tarixi zəfər, doğma torpaqlarımızın son qarışına qədər azad edilməsi, Qarabağda böyük quruculuq işləri, dünya siyasətində söz sahibi olmağınız bizi ürəkdən sevindirir. Bütün bu mühüm işlərlə bərabər mədəniyyətimizə, ədəbiyyatımıza daimi qayğı və diqqətinizə görə bir daha təşəkkür edirik. Bu siyasət - əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan yaradıcı insanlara səmimi münasibətin növbəti parlaq təzahürüdür. Sizə bir daha təşəkkür edir, dərin minnətdarlığımızı bildirir və səmərəli fəaliyyətinizdə yeni uğurlar diləyirik.

Dərin hörmətlə,

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Birliyin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, sədr müavini Rəşad Məcid, katiblər Elçin Hüseynbəyli, Səlim Babullaoğlu, İlqar Fəhmi**

*11 sentyabr 2025*